Azərbaycan Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında
Dövlət Əmək Müfəttişliyi Xidməti

Bakı-AZ1009, S. Əsgərova küç. 85, Tel.: (994 12) 596 48 28, faks: (994 12) 596 48 38

№ 1713001 2663
“19” iyun 2017-ci il

**“SINAM” MMC-nin direktoru**
**cənab Əbülfət Rəhmanova**

Dövlət Əmək Müfəttişliyi Xidmətində müəssisə resurslarının idarə edilməsi üçün tətbiq olunan “SERP” proqram təminatına dair

# RƏY MƏKTUBU

Bildiririk ki, Dövlət Əmək Müfəttişliyi Xidmətində 2015-ci ildən müəssisə resurslarının idarə edilməsi üçün ”SERP” proqram təminatı tətbiq edilmişdir. İşin təşkili və idarə edilməsi tam olaraq sistemdə əhatə edilmişdir. Sistem Milli Mühasibat Uçotu Standartları əsasında proqramlaşdırıldığından, qəbul edilmiş müvafiq qanunvericilik aktları, Əmək Məcəlləsi, Vergi Məcəlləsi və müxtəlif icra təlimatları funksionallaşdırılmışdır. Mühasibat uçotu üzrə olan əlavə və dəyişikliklər operativ şəkildə öz əksini tapır. Bu işdə “SINAM” MMC təqdirə layiqdır.

“SERP” sisteminin tətbiqi nəticəsində kadr və mühasibatlıq işləri avtomatlaşdırılmışdır ki, bunun da Kadrlar və Maliyyə sektorlarında müvafiq işlərin asanlaşmasında böyük əhəmiyyəti olmuşdur. “SERP” sistemi sayəsində kağız sənədləşmələr elektron formata keçirilmişdir. Bundan əlavə Kadrlar və Maliyyə sektorları arasında sənəd dövriyyəsinə ehtiyac aradan qaldırılmış, əlavə sənəd kütləsinin yığılmasına ehtiyac qalmamışdır. Proqramın tətbiqi sayəsində işlərin operativliyi əhəmiyyətli dərəcədə artmışdır.

Sistemin ən əsas üstünlüklərindən biri, istənilən məlumatı qısa vaxt ərzində və dəqiqliklə əldə edə bilməyimizdir. Həmçinin informasiyanın bazada toplanılması və silinmiş məlumatların belə asanlıqla bərpa edilməsini sistemin üstün cəhətlərindən hesab edirik.

Ümumilikdə qarşı tərəfin üzərinə götürdüyü öhdəliklərin vaxtında və lazımi qaydada icrasının təmin edilməsi, mütəmadi olaraq xidmət göstərməsi bizi qane edir.

**Hörmətlə,**
**rəis müavini** **İlqar Məmmədov**

7240